*Üzeyir Hacıbəyli – 140*

# Ağcabədi - dahi bəstəkarın dünyaya göz açdığı məkan

**Elə dahilər var ki, hansı kənddə, şəhərdə, ölkədə, hətta hansı qitədə doğulmasından asılı olmayaraq, bütün planetin nadir şəxsiyyətləri sayılırlar. Azərbaycan professional musiqi sənətinin və milli operanın banisi Üzeyir Hacıbəyli də onlardan biridir. Amma dəqiqlik sevənlər onun doğum ünvanının çox vaxt iddia edildiyi kimi, musiqi beşiyimiz Şuşa deyil, Ağcabədi olduğunu qeyd etməyi zəruri sayırlar. Bu isə həqiqətən də, belədir.**




Üzeyir bəyin atası – şuşalı Əbdülhüseyn bəy Xan qızı Natəvanın Ağcabədidəki təsərrüfatına rəhbərlik edirdi. O vaxtlar rahat yol və nəqliyyat olmadığından, Əbdülhüseyn bəyin xidməti işlə əlaqədar gedib qalmaq üçün Ağcabədidə (o cümlədən Rəncbərlər kəndində) yaşayış yeri vardı.

**Üzeyirşünas Səadət Qarabağlı:**

– İndi çox mübahisələr gedir, şuşalılar deyirlər ki, Üzeyir bəy Şuşada doğulub, ağcabədililər isə deyirlər Ağcabədidə. Əslində Üzeyir bəyin bacı-qardaşları Şuşada, özü isə Ağcabədidə doğulub. Bunun da səbəbi odur ki, anası Şirin xanım ona hamilə




olanda Ağcabədidə olan həyat yoldaşına baş çəkmək istəyir. Şirin xanımın bacıları Ağdamda ərdə idilər. Əvvəlcə Ağdama gəlir, bacılar hərəsi bir az onu qonaq saxlayırlar, sonra Ağcabədiyə gedir, elə orada da Üzeyir bəy anadan olur. Bir aydan sonra isə dəvənin üstünə kəcavə qoyurlar və Şirin xanım kəcavədə balaca Üzeyirlə bərabər Şuşaya qayıdır.

**Mətbuat Şurasının sədri, şair-publisist Rəşad Məcid:**

– Doğulduğum Ağcabədi ilə Üzeyir bəyin bağlılığı mənim üçün məxsusi fəxarətli bir məqamdır. Orta məktəb çağımda Üzeyir Hacıbəylinin bioqrafiyasını hər dəfə oxuyanda onun məhz Ağcabədidə doğulmasına görə çox qürurlanırdım və dahi bəstəkarın xatirəsinə ithaf etdiyim şeir o vaxt Ağcabədi rayon qəzetində çap olunmuşdu:

*Böyük sənətiylə, istedadıyla,*
*O keçdi ən çətin, uca səddi də.*
*Yanaşı yazıldı dahi adıyla:*
*“Dünyaya gəlibdir Ağcabədidə*
*O burda cahana açıb gözünü,*
*Torpaqla ilk dəfə burda görüşüb.*
*Böyük sənətinə Üzeyir bəyin,*
*Bir çınqı alov da bu yerdə düşüb.*

Üzeyir bəyin Rəncbərlər kəndinin sakinləri – tanınmış şəxslər Mirzə Vəli və Seyid Məhəmməd ağa ilə yaxın qohumluq əlaqələri vardı. Onun həm də Qori seminariyasında tələbə yoldaşı olmuş Mirzə Vəliyə hədiyyə etdiyi şəxsi tarı və dairəvi eynəyi də illərcə Rəncbərlər kəndində qorunub saxlanıb. Mirzənin gəlini – ağbirçək Ağca nənə ilə musiqi müəllimi olan nəvəsi Hafiz Üzeyir bəyə aid yadigarları qonaqlara fəxrlə göstərirdilər.

Ağcabədidə 2008-ci il sentyabrın 20-də dahi bəstəkarın adını daşıyan Qarabağ Muğam Mərkəzinin və park-kompleksin açılışı olub. Orada Üzeyir bəyin qranit büstü, eləcə də qəhrəmanlarının fiqurları qoyulub. Böyük sənət korifeyinin ruhuna bu ehtiram Heydər Əliyev Fondunun təşəbbüsü və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin dəstəyi ilə ifadə edilib. Bu mərkəz Qarabağda muğam ifaçılıq sənətinin inkişafında, təbliğində müstəsna rol oynayır.

Ötən ay Ağcabədidə “18 sentyabr – Üzeyir Musiqi Günü” təntənə ilə keçib. Rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov deyib ki, şuşalı olan, amma Ağcabədidə dünyaya göz açan bəstəkar dünya musiqisinə olduqca qiymətli və tükənməz xəzinə bəxş edib. Ağcabədililər onun adı ilə qürur duyurlar. Bayramda musiqi kollektivlərinin ifasında əksəriyyəti Üzeyir bəyin ölməz əsərlərindən ibarət rəngarəng konsert proqramı təqdim olunub.

Əlbəttə, bu gün Azərbaycanın hansı nöqtəsinə baxsaq, dahi Üzeyir bəyi görərik.

Bu dünyada cəmi 63 il yaşamış böyük şəxsiyyət Ağcabədi, Şuşa, Bakı ilə bərabər, əbədiyyət adlı ünvanda qərar tutub.

***Əli NƏCƏFXANLI***
***XQ***